Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Fevral 2018

Könüllülük xidməti - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Könullülük Xidməti Könüllü Sosial İli (FSJ), Könüllü Ekologiya İli (FÖJ) və Federal Könüllülük Xidmətini (BFD) əhatə edir. FSJ və FÖJ proqramlarında 27 yaşa çatmayan vətandaşlar iştirak edə bilərlər, BFD isə yaş məhdudiyyəti qoymur. Sizin iş saatınız tam ştat vahidində çalışan əməkdaşın iş saatına uyğun olmalıdır, lakin Siz yalnız nəzarət altında yardımçı fəaliyyəti ilə məşqul ola bilərsiniz. Qalma müddəti 6 aydan 24 aya qədər ola bilər.

Sənədlərə baxma müddəti orta hesabla 2 həftədən ibarətdir.

Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin 2 ədəd surəti)*
- Şəxsiyyət vəsiqəsi *(əsli + 2 ədəd surəti)*
- 2 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- Almaniyada könüllü fəaliyyətin həyata keçirlməsinə dair müqavilə/razılaşma. Qalma yeriniz, iş saatları, işlədiyiniz sahə, alacağınız əmək haqqı göstərilməlidir *(əsli + 2 ədəd surəti)*
- Peşə fəaliyyətinizi əks etdirən tərcümeyi-hal *(2 ədəd surəti)*
- *Əgər varsa*: sizin əvvəlki aldığınız təhsilinizə dair sübutlar, məs.: diplomlar və sertifikatlar *(əsli + 2 ədəd surəti)*
- Gələcək planlarınızı əks etdirən motivasiya məktubu *(2 ədəd surəti)*
- Dil bilikərini təsdiq edən sertifikat *(əsli + 2 ədəd surəti*)
- Viza verilərkən əlavə olaraq təqdim olunmalıdır**:** tibbi sığorta haqqında sənəd (sığorta ödənişinin minimal məbləği 30.000 Avro və bütün Şengen dövlətləri üçün etibarlı olmalı və ölkəyə daxil olacağınız tarixdən könüllü fəaliyyətə başlayacağınız vaxta qədər etibarlı olmalıdır) *(əsli + 2 ədəd surəti)*

<u>Federal Könüllülük Xidmətinə dair məlumat</u>:
Sizin müqaviləniz həm Sizin tərəfinizdən, həm də Federal Ailə və Vətəndaş Cəmiyyəti məsələləri üzrə İdarə habelə fəaliyyət yeri, mərkəzi idarə və könüllü fəaliyyəti həyata keçirən qurum tərəfindən imzalanmış olmalıdır.

<u>Könüllü Sosial İli (FSJ) və Könüllü Ekologiya İlinə (FÖJ) dair məlumat</u>:
Sizin müqaviləniz həm Sizin tərəfinizdən, həm könüllü fəaliyyəti həyata keçirən qurum yaxud fəaliyyət edəcəyiniz yer tərəfindən imzalanmış olmalıdır.

Alman dili biliklériniz olmadığı halda Sizdə dəvət edən tərəfin adından bu dil biliklərinə ilkin mərhələdə ehtiyac olmadığı və ölkəyə gəldikdən sonra dil kursuna gedə biləcəyinizi təsdiq edən sənəd olmalıdır.